# Azərbaycan-Vyetnam əlaqələri yeni mərhələyə yüksəldi

**"Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlərin inkişafı son onilliklər ərzində mühüm mərhələlərdən keçib, xüsusilə dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri bu əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edib. Bu səfərlər yalnız siyasi dialoqun dərinləşməsinə deyil, həm də iqtisadi, ticarət, humanitar və partiyalararası əməkdaşlığın genişlənməsinə ciddi təkan verib".**





Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib. O bildirib ki, 2014-cü ildə Azərbaycan Prezidentinin Vyetnama dövlət səfəri və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının rəhbəri cənab Çıonq Tan Şanqın Bakıya rəsmi səfəri iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsində dönüş nöqtəsi olub. Bu səfərlər zamanı aparılan danışıqlar və imzalanan sənədlər siyasi münasibətlərin təməlini möhkəmləndirib, eyni zamanda iqtisadi sahədə əməkdaşlığın əsasını qoyub. "Çıonq Tan Şanqın Bakıya səfəri çərçivəsində ilk Azərbaycan-Vyetnam biznes-forumu keçirildi. Forumda neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər strateji sahələri təmsil edən işgüzar dairələrin nümayəndələri iştirak etdilər. Bu tədbir ikitərəfli ticarət və investisiya imkanlarının öyrənilməsi və konkret layihələrin əsasının qoyulması baxımından əhəmiyyətli platforma oldu. İkitərəfli münasibətlərin davamlı inkişafını təmin etmək məqsədilə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya iqtisadi, ticarət, elmi və texniki sahələrdə əməkdaşlıq imkanlarını qiymətləndirmək və yeni istiqamətləri müəyyənləşdirmək məqsədi daşıyır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, diplomatik məsləhətləşmələr Xarici İşlər nazirlikləri xətti ilə davam etdirilir. Bu ilin aprel ayında keçirilmiş sonuncu siyasi məsləhətləşmələr ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın gücləndirilməsi istiqamətində konkret addımların atılmasına şərait yaradıb. Eyni zamanda hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyəti qanunverici səviyyədə əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. Azərbaycan və Vyetnam beynəlxalq arenada da fəal əməkdaşlıq edir. Hər iki ölkə Qoşulmama Hərəkatı və BMT çərçivəsində bir-birini dəstəkləyir, çoxtərəfli diplomatik platformalarda ortaq maraqları qoruyurlar. Bu əməkdaşlıq, xüsusilə qlobal təhlükəsizlik, davamlı inkişaf və iqlim dəyişikliyi kimi məsələlərdə ortaq mövqelərin formalaşmasına töhfə verir.

Deputat vurğulayıb ki, ikitərəfli ticarət əlaqələri artan dinamika nümayiş etdirir: 2024-cü ildə Azərbaycan və Vyetnam arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları təşkil edib. Bu rəqəm tərəflər arasında mövcud potensialı əks etdirməklə yanaşı, gələcəkdə daha yüksək göstəricilərə nail olmaq üçün geniş imkanların olduğunu göstərir. Azərbaycan tərəfi Vyetnamla iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlıdır. İki ölkə arasında kənd təsərrüfatı, sənaye, enerji, nəqliyyat və logistika kimi sahələrdə tərəfdaşlığın dərinləşdirilməsi üçün real imkanlar mövcuddur. Bir çox sahələrdə olduğu kimi, Vyetnamla Azərbaycan neft sahəsində də əməkdaşlıq edir və bu əməkdaşlıq möhkəm tarixi təmələ əsaslanır. Çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında çox böyük rol oynayıblar. Hələ 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" şirkəti ilə SOCAR arasında müqavilə imzalanıb".

P.Vəliyeva qeyd edib ki, ölkələrimiz həmçinin turizm istiqamətində də əlaqələrin möhkəmlənməsinə xüsusi yer verir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Qeyd edilənlərlə yanaşı, hər iki ölkənin müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı ölkələrimiz üçün qarşılıqlı maraq doğuran sahələrdir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan. - 2025.-10 may (№ 95).- S.18.